

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 noyabr 2026-cı il №79 (3081) https://mod.gov.az Qiyməti 30 qəpik

Prezidentin sosial media hesablarında Bayraq Günü ilə bağlı paylaşım olub

Prezident İlham Əliyevin sosial media hesablarında 9 Noyabr - Bayraq Günü ilə bağlı paylaşım olub. Paylaşımda deyilir: “Bu gün Azərbaycanın hər bir yerində Azərbaycan Bayrağı dalğalanır! Eşq olsun Azərbaycan Bayrağına!”.

AZƏRTAC paylaşımı təqdim edib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram**:

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

“general-leytenant” hərbi rütbəsi
general-mayor Zaur Zeynalabdul oğlu Rüstəmova

“general-mayor” hərbi rütbəsi
polkovnik Elnur Əli oğlu Ələsgərliyə
polkovnik Hikmət Rövşən oğlu Əliyevə
polkovnik Telman Əsgər oğlu Hüseynova.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 noyabr 2026-cı il

Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Bu gün biz böyük qürurla Zəfər Gününü qeyd edirik! Biz Prezidentimizə, cəsarətli əsgərlərimizə, zabitlərimizə və veteranlarımıza hədsiz dərəcədə minnətdarıq! Qəhrəmanlığınıza, şücaətinizə, cəsarətinizə, dözümlülüyünüzə görə, bugünkü bayramı müzəffər xalq kimi qeyd etdiyimizə görə çox sağ olun!

Vətən uğrunda həlak olmuş qəhrəman oğullarımızın nurlu xatirəsini ehtiramla yad edir, onların doğma və yaxınlarına səbir arzulayıram! Qoy Azərbaycanda həmişə sülh və əmin-amanlıq hökm sürsün!

Dərin hörmət və sevgilərlə, Sizin MEHRİBAN”.

Birinci vitse-prezident Mehriban Əliyeva Bayraq Günü ilə bağlı paylaşım edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında 9 Noyabr - Bayraq Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: “Qoy sonsuz qürur mənbəyimiz olan üçrəngli bayrağımız hər zaman müstəqilliyimizin əbədiliyinin, xalqımızın birliyinin və dövlətimizin qüdrətinin təcəssümü olsun!”.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

“Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır”



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Füzuli Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qarşılayıblar.

* * *

Noyabrın 8-də Şuşada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanı qarşılayıb.

Fəxri qarovul dəstəsinin rəisi Türkiyə Prezidentinə raport verib.

Türkiyənin və Azərbaycanın Dövlət himnləri səslənib.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçib.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Rəcəb Tayyib Ərdoğana, Türkiyə nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olunub.

Prezidentlər rəsmi foto çəkdiriblər.

* * *

Noyabrın 8-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla təkbətək görüşü keçirilib.

* * *

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşada mətbuata bəyanatlarla çıxış ediblər.

Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış edib.

Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident, əziz qardaşım, Azərbaycana, Qarabağa xoş gəlmisiniz.

Zəfər Günündə bizimlə bərabər olmağınız bütün Azərbaycan xalqını sevindirir. Buna görə Sizə xüsusi minnətdarlığımı bildirmək istəyirəm.

Düz altı il bundan əvvəl Şuşa şəhəri erməni işğalından azad edilmişdir və ondan bir gün sonra Ermənistan rəsmən təslim olmuşdur. Beləliklə, 30 illik işğal sona çatdı.

Şuşa şəhəri 28 il əsarət altında idi, ancaq öz milli ruhunu itirmədi. Şuşanın azad edilməsi həm böyük rəmzi məna daşıyırdı, həm də İkinci Qarabağ müharibəsinin önəmli hissələrindən biri idi.

Əziz qardaşım, Siz və qardaş türk xalqı 44 gün ərzində bizim yanımızda idiniz. Müharibənin ilk saatlarında Sizin verdiyiniz bəyanat və mənimlə telefon söhbətiniz bütün dünyaya göstərdi ki, qardaş Türkiyə Azərbaycanın yanındadır. Sizin bəyanatınız bizə əlavə güc verdi, ruh verdi. Tarixi sözləriniz - “Azərbaycan tək deyil, Türkiyə onun yanındadır” heç vaxt unudulmayacaq. Azərbaycan xalqı bunu yaxşı bilir və buna görə şəxsən Sizə və qardaş Türkiyə xalqına minnətdardır. Sizin göstərdiyiniz siyasi və mənəvi dəstək bizim ruhumuzu daha da artırmışdır.

(Ardı 2-ci səhifədə)

Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 8 Noyabr - Zəfər Günü münasibətilə Xankəndi şəhərində Zəfər abidəsini ziyarət edərək önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan xalqını Zəfər Günü münasibətilə təbrik edib.

Prezident İlham Əliyevin təbriki

- Mən əziz xalqımı Zəfər Günü münasibətilə ürəkdən təbrik edirəm, Azərbaycan Silahlı Qüvvələrini təbrik edirəm.

Vətən müharibəsində şəhid olmuş əsgər və zabitlərimizin ruhu şad olsun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların canı-qanı bahasına, hərbçilərimizin qəhrəmanlığı nəticəsində biz erməni işğalına son qoya bildik. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində qəhrəmanlıq, rəşadət, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Düşmənin beli döyüş meydanında qırıldı. 44 günlük Vətən müharibəsində 300-dən çox şəhər və kənd döyüş meydanında düşməndən azad edildi. O yaşayış məntəqələrində Azərbaycan Bayrağı qaldırıldı və bunun nəticəsində noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu. Beləliklə, o vaxt döyüş meydanında hələ azad olunmamış ərazilər də Azərbaycana qaytarıldı, bir güllə atılmadan, bir şəhid vermədən.

44 günlük Vətən müharibəsi bizim şanlı tariximizdir. Biz haqlı olaraq bu Zəfərlə fəxr edirik. Bütün Azərbaycan xalqı fəxr edir. Gələcək nəsillər də fəxr edəcəklər. Bu şanlı tarix bizim qəlbimizdə əbədi yaşayacaq.

Vətən müharibəsində Azərbaycan xalqı öz mənəvi keyfiyyətlərini bütün dünyaya nümayiş etdirdi. Ermənistan işğal edilmiş ərazilərdə bir neçə istehkam qurmuşdur. Bəzi yerlərdə 6-7 müdafiə xətti qurulmuşdu. Bütün yerlər minalanmışdır. Tikanlı məftil, istehkamlar, əlverişli mövqelər, təpələr, dağlar - bütün bunlar bizim üçün böyük çətinliklər yaradırdı. Ermənistan tərəfi əmin idi ki, Azərbaycan öz torpaqlarını hərbi yolla azad edə bilməyəcək, yaxud da ki, kimsə bizə bu icazəni verməyəcək. Onlar səhv etdilər və Azərbaycan xalqı bir daha bütün dünyaya nə qədər böyük xalq olduğunu göstərdi. Bizim əsgər və zabitlərimiz müdafiə xətlərini yarmaq üçün sinələrini qabağa verib şəhid olmuşlar, yaralanmışlar, şəhadət zirvəsinə ucalmışlar. Yəni bizi irəliyə aparan milli ruhumuz idi.

(Ardı 2-ci səhifədə)

Prezident İlham Əliyev Zəfər Günü münasibətilə Azərbaycan xalqını təbrik edib

(Əvvəli 1-ci səhifədə)

Təbii ki, uzun illər ərzində ordu quruculuğu, Silahlı Qüvvələrimizin peşəkarlığının artırılması, müntəzəm olaraq hərbi təlimlərin keçirilməsi, döyüş qabiliyyətinin artırılması, ordumuzun müasir texnika ilə, silahlarla təchiz edilməsi amilləri Qələbəmizin qazanılmasında böyük rol oynamışdır. Amma Qələbəyə aparan əsas yol xalqımızın, əsgər və zabitlərimizin ürəyindən keçirdi. Bizi irəliyə aparan yol ləyaqət yolu idi. Azərbaycan xalqı heç vaxt işğalla barışmaq fikrində deyildi. Mən işğal dövründə dəfələrlə müxtəlif tədbirlərdə açıq bəyan edirdim ki, Azərbaycan işğalla barışmayacaq. Baxmayaraq ki, Ermənistanın arxasında dayanan ölkələr bizi bu işğalla barışdırmaq istəyirdilər. Dəfələrlə bildirirdilər ki, bu münaqişənin hərbi həlli yoxdur. Dəfələrlə bizi qəbuledilməz güzəştlərə sövq etmək üçün müxtəlif fitnələr törədirdilər. Azərbaycana qarşı aparılan genişmiqyaslı qarayaxma, şər-böhtan kampaniyası, Azərbaycan dövlətini, xalqını və rəhbərliyini gözdən salmaq üçün qurulan bütün təxribatlar heç bir nəticə vermədi. Mən dəfələrlə bildirirdim ki, biz heç vaxt işğalla barışmayacağıq, əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz hərbi yolla ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Əfsuslar olsun ki, mənim sözlərimi eşitmədilər və nəticə etibarilə xalqımız bir yumruq kimi birləşərək döyüş meydanında düşmənin belini qırdı, tarixi ədaləti, ləyaqətimizi və beynəlxalq hüququ bərpa etdi.

Ermənistan tərəfi o qədər azğınlaşmışdı ki, hətta bizi daim hədələyirdi. Yeni ərazilər uğrunda yeni müharibə ilə hədələyirdi, "Qarabağ Ermənistandır və nöqtə" sözləri ilə bizim ləyaqətimizi alçaltmağa çalışırdı. Biz isə buna döyüş meydanında cavab verdik və döyüş meydanında kimin kim olduğunu hər kəs əyani şəkildə gördü. Bir nəfər belə olsun Azərbaycan Ordusundan qaçan, fərarilik edən olmayıb. Halbuki Ermənistan rəhbərliyinin etirafına görə, Ermənistan ordusunda 12 minə yaxın fərari olmuşdur. Bax, fərq bundan ibarətdir. Azərbaycan döyüş meydanında tam üstünlüyü təmin edərək 8 noyabr günündə - Zəfər bayramını qeyd etdiyimiz gündə Şuşanın azad edilməsi faktiki olaraq İkinci Qarabağ müharibəsinin taleyini həll etdi. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan kapitulyasiya aktına imza atdı.



O vaxt Ermənistan rəhbərliyinin yersiz açıqlamalarına biz də açıqlamalar vermişdik. Mən bildirmişdim ki, "Qarabağ Azərbaycandır və nida". O nida işarəsini biz 2023-cü il sentyabrın 20-də bax, burada - Xankəndidə qoyduq. Birgünlük antiterror əməliyyatı Ermənistanın işğalçı ordusunun 15 minlik işğalçı korpusunu tamamilə iflic vəziyyətə salmışdır, çox dəqiq və peşəkarcasına aparılmış hərbi əməliyyat nəticəsində Ermənistan məcburən ikinci dəfə təslim olmuşdur.

Bu gün biz azad Qarabağda qurub-yaradırıq. Bu gün biz - bu torpaqların sahibləri bütün dünyaya göstəririk ki, bura bizim torpağımızdır. Çünki biz qurub-yaradan xalqıq. İşğal dövründə Ermənistan ancaq bizim təbii sərvətlərimizi talayırdı, meşələrimizi qırırdı, mədənlərimizi qanunsuz olaraq istismar edirdi. Biz isə şəhərləri sıfırdan qururuq.

İşğal dövründə bizim bütün şəhər və kəndlərimiz yerlə-yeksan edilmişdir. Bu, misli görülməmiş barbarlıqdır. Bizim tarixi abidələrimiz, məscidlərimiz Ermənistan tərəfindən dağıdıldı və təhqir olundu. İndi genişmiqyaslı quruculuq işləri gedir, "Böyük Qayıdış" Proqramı icra edilir. Artıq 97 min insan azad edilmiş ərazilərdə yaşayır, təhsil alır, çalışır və hər ay biz keçmiş köçkünlərin öz doğma torpaqlarına qayıtmasının şahidləriyik.

Bu təbrik sözlərimi mən Xankəndidə, Zəfər tağının önündə deyirəm. Bu, bizim şanlı Zəfərimizin şərəfinə ucaldılmış ikinci Zəfər tağıdır. Birincisi Bakıda, ikincisi isə burada, Xankəndidədir. Bakıda Zəfər tağının yanında Zəfər Muzeyi də fəaliyyət göstərir. Hər bir şəhidimizin adı muzeydə həkk olunub. Xankəndidə də Zəfər Muzeyi olacaq. Artıq Zəfər Muzeyinin yaradılması ilə bağlı son tamamlama işləri aparılır. Onun məkanı keçmiş icra hakimiyyətinin binasıdır, hansı ki, vaxtilə Azərbaycana qarşı təcavüzün, işğalçılıq siyasətinin beşiyi idi. O, bir şeytan yuvası idi. O binaya mən şanlı Zəfərimizdən sonra - 2023-cü ilin oktyabrında gələndə, ilk növbədə, binanın pəncərələrini açdım ki, o şeytan ruhu oradan çəkilsin. İndi həmin o binada Zəfər Muzeyi yerləşəcək. O binada oturanlar - hərbi cinayətkarlar öz layiqli cəzalarını alıblar. Onlar Bakıya tanklarla gəlmək istəyirdilər, Bakıda çay içmək istəyirdilər. Təkəbbürlü bəyanatlar verirdilər, çünki sığınmışdılar bəzilərinin qucağına və hesab edirdilər ki, əbədi işğalçılıq siyasətini aparacaqlar. Biz isə onlara göstərdik kim kimdir. Biz Azərbaycan xalqının ləyaqətini, mətanətini, iradəsini göstərdik və bu gün onlar Azərbaycan həbsxanalarında çay içirlər, öz layiqli cəzalarını alıblar.

Bu Zəfər tağına gedən pilləkənin hər pilləsində Vətən müharibəsinin hər bir günü həkk olunub. Bu pilləkənlə qalxan hər bir insan haqlı olaraq qürur hissi keçirir, 44 günlük şanlı yürüşümüzün tarixini bir daha yaşayır. Bütün bu məsələlər təbiidir. Amma onu da bildirməliyəm ki, bu pilləkəndə, eyni zamanda, şəhidlərimizin qanı da həkk olunub. Çünki biz hər gün şəhidlər verirdik, hər gün qan tökülürdü. Buna baxmayaraq, xalqımız əsl vətənpərvərlik və həmrəylik göstərirdi və xalqdan gələn dəstək mənə Ali Baş Komandan kimi əlavə güc verirdi. Ancaq irəli getdik və bir gün də dayanmadıq, bir gün də geri addım atmadıq, düşməni torpaqlarımızdan qovduq, haqq-ədaləti bərpa etdik, bu gün ərazimiz azaddır və bütövdür.

Bizi irəliyə aparan bizim milli-mənəvi dəyərlərimizdir. Azərbaycan dövləti bu təməl üzərində qurulub. Milli-mənəvi dəyərlərimiz, Azərbaycan dəyərləri bizim üçün hər şeydən üstündür. Əsrlər boyu biz bu dəyərləri qəlbimizdə yaşatmışıq, qorumuşuq və gələcək nəsillərə əmanət kimi verəcəyik.

Azərbaycançılıq məfkurəsi bizim bütün uğurlarımızın təməlində dayanan fəlsəfədir. Azərbaycançılıq bütün vətəndaşlarımızı birləşdirən fəlsəfədir. Azərbaycançılıq bizi irəliyə aparan məfkurədir. Azərbaycanda bütün etnik qruplar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bizi birləşdirən vətəndaşlıq, həmrəylik və azərbaycançılıq məfkurəsidir. Bu, bizim milli ideyamızdır. Bir daha demək istəyirəm ki, bu, gələcəyə aparan yoldur. Bu gün Azərbaycanda hökm sürən ictimai-siyasi sabitlik, xoş ovqat, quruculuq meyilləri və cəmiyyətimizin vahid amal uğrunda birləşməsi, hesab edirəm ki, bugünkü dünyada az-az rast gəlinən mənzərədir.

Mən bu gözəl bayram günündə bir daha Azərbaycan xalqının nə qədər böyük xalq olduğunu qeyd etmək istəyirəm. Çünki ancaq böyük xalq əzab-əziyyətlərə baxmayaraq, 30 illik işğala baxmayaraq, - baxmayaraq ki, Ermənistanın arxasında dayanan böyük dövlətlər bizi hədələyirdi, - iradə göstərdi və mənə dəstək verərək Qələbəmizi şərtləndirdi.

Bu gözəl bayramı qeyd edərkən hər birimiz haqlı olaraq qürur hissi keçiririk. Eyni zamanda, hər birimiz bu yolda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini hörmətlə yad edirik. Əminəm, hər birimiz özümüzə deyirik: Biz elə güclü olmalıyıq ki, bundan sonra Azərbaycana zərər vermək heç kimin ağlına belə gəlməsin! Əminəm ki, belə də olacaq. Bu gün Azərbaycan güclü dövlətdir, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərindən heç kimdən asılı olmayan dövlətdir, müstəqil siyasət aparan dövlətdir və ləyaqətli dövlətdir.

Azərbaycan xalqına eşq olsun! Silahlı Qüvvələrimizə eşq olsun! Yaşasın Azərbaycan!

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

"Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır"



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan Ordusu 44 gün ərzində 300-dən çox şəhər və kəndi döyüş meydanında azad etmişdir. Bu döyüşlərdə 3000 şəhid olmuşdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qanı yerdə qalmadı, onların intiqamı döyüş meydanında alındı və tarixi ədalət bərpa edildi.

İşğal dövründə, təbii ki, müxtəlif vaxtlarda müəyyən ümidlər də var idi - bu məsələ, bu münaqişə sülh yolu ilə öz həllini tapa bilər. Ancaq Ermənistanın qeyri-konstruktiv mövqeyi buna imkan vermədi.

Bu gün vəziyyət tam başqadır. Bu gün artıq Ermənistanla Azərbaycan arasında normallaşma prosesi gedir və ümid edirəm ki, bu proses konkret nəticələrə gətirib çıxaracaq. Bildiyiniz kimi, artıq bir ildən çoxdur ki, Ermənistan və Azərbaycan sülh sazişini paraflayıb, amma hələ son imza atılmayıb. Bunun müəyyən səbəbləri var. Hesab edirəm ki, bu barədə Türkiyə və Azərbaycan ictimaiyyəti yaxşı bilir.

44 günlük Vətən müharibəsi Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi. Ondan yeddi ay sonra burada, Şuşada tarixi Şuşa Bəyannaməsi imzalandı və bu, bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Halbuki onsuz da biz hər zaman müttəfiq idik. Türkiyə və Azərbaycan xalqları qardaş xalqlardır və dəfələrlə demişəm ki, dünyada bizim qədər bir-birinə bağlı olan xalqlar da yoxdur, dövlətlər də yoxdur. Bu, bizim böyük sərvətimizdir. Şuşa Bəyannaməsi, sadəcə olaraq, bu tarixi, mədəni əlaqələri rəsmi çərçivəyə salmışdır. Bizi birləşdirən ortaq



tarixdir, etnik köklərdir, dilimizdir, ədəbiyyatımızdır, mənəvi dəyərlərimizdir. Bu, böyük sərvətdir və bu sərvət üzərində, bu güclü təməl üzərində bu gün dövlətlərarası münasibətlər də inkişaf edir.

Bizim birliyimiz, qardaşlığımız sarsılmazdır. Bunu sarsıtmaq istəyənlər isə öz arzularına heç vaxt çatmayacaqlar. Onların arzuları onların gözlərində qalacaq. Biz - iki xalq, ilk növbədə, iki lider bu sərvəti qoruyuruq və heç kimə imkan vermərik ki, bizim aramıza girsin, yaxud da öz şəxsi maraqları naminə bizim birliyimizə, qardaşlığımıza, həmrəyliyimizə kölgə salsın.

(Ardı 3-cü səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

“Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır”



(Əvvəli 2-ci səhifədə)

Bu gün Türkiyə dövləti əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə böyük gücə çevrilib, dünya miqyasında böyük gücdür. Nəinki bölgədə gedən proseslərdə, eyni zamanda, dünya əhəmiyyətli məsələlərdə də söz sahibidir. Türkiyənin güclü iqtisadiyyatı, güclü sənaye potensialı, siyasi çəkisi bu gün reallıqdır və bizi çox sevindirir, bizi gücləndirir. Azərbaycan da son illər ərzində böyük inkişaf yolu keçmişdir və bu gün bu yolla inamla irəliləyir. Biz birlikdə daha da güclüyük. Böyük coğrafiyanı əhatə edən ərazidə Türkiyə-Azərbaycan birliyi önəmli bir amildir. Bu, sabitlik, istiqrar, əməkdaşlıq, təhlükəsizlik amilidir.

Bir daha demək istəyirəm ki, əziz qardaşım, hörmətli Prezidentin sıx qrafikinə baxmayaraq, bu Zəfər Günündə burada, Qarabağda olması bütün dünyaya bizim birliyimizi bir daha göstərir. Əminəm ki, bu birlik əbədi olacaq. Bilirəm ki, heç kimdə - nə Türkiyədə, nə Azərbaycanda bununla bağlı şübhə yoxdur. Biz keçmişdə də bir yerdə olmuşuq, müharibə dövründə də bir yerdə idik, bu gün də bir yerdəyik və gələcəkdə də bir yerdə olacağıq. Hesab edirəm ki, bu tarixi səfərin əsas nəticəsi məhz budur.

Təbii ki, ikitərəfli əlaqələr haqqında danışarkən bir çox məsələlər haqqında danışa bilərik. Bütün bu məsələlər bəllidir, siyasi, iqtisadi əlaqələr, sərmayə qoyuluşu, enerji, nəqliyyat dəhlizləri, Zəngəzur dəhlizi - bütün bunlar bu gün geniş müzakirə olundu. Amma hesab edirəm ki, səfərin əsas nəticəsi məhz dediyim kimidir: “Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır”.

Əziz qardaşım, gəldiyiniz üçün Sizə bir daha təşəkkür edirəm. Sağ olun.

* * *

Sonra Türkiyə Prezidenti bəyanatla çıxış edib.

Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatı

- Hörmətli cənab Prezident, Əziz qardaşım.

Hörmətli heyət üzvləri.

Hörmətli media nümayəndələri.

Sizləri şəxsən öz adımdan, ölkəm və millətim adından ən səmimi hisslərlə və məhəbbətlə salamlayıram.

Qarabağ Zəfərinin altıncı ildönümündə sizlərlə birlikdə olmaqdan məmnunam. Bu əlamətdar ildönümünü şairin “Dilimizdə işlənən ən əziz bir söz kimi, Canımızı isidən ocaq kimi, köz kimi, Ən qoxulu güllərlə çiçək açan Şuşamız”, - deyə tərif etdiyi tarix, təbiət və mədəniyyət şəhəri gözəl Şuşada olmaqdan xüsusi məmnunluq duyuram.

Çıxışımın əvvəlində Qarabağın azadlığı uğrunda canlarını fəda edən bütün şəhidlərimizi hörmət və ehtiramla anıram. Qazilərimizə təşəkkürümüzü bildirir, Allahdan onlara cansağlığı, rifah və uzun ömürlər diləyirəm.

Altı il əvvəl İlham qardaşımın qətiyyətli liderliyi ilə bir olan Azərbaycan xalqı böyük qəhrəmanlıqla Qarabağı işğaldan azad etmişdir. Bu Şanlı Zəfər Azərbaycanın haqlı mübarizəsinin ən gözəl nümunəsi və bütün Türk coğrafiyasının qürur mənbəyi olmaqda davam edir.

Bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər tarixin müxtəlif sınaqlarından keçərək bugünkü yüksək səviyyəyə çatmışdır. “Bir millət, iki dövlət” şüarı ilə tərif etdiyimiz bu könül birliyi ortaq keçmişimizdən aldığı güclə sabahlarımıza işıq tutan sönməz bir məşəldir. Qardaşlığımız ortaq dilin, tarixin və mədəniyyətin daha çox fövqündədir. Bakının sevincini Ankaranın sevinci, Şuşanın qürurunu bütün millətimizin qüruru bilməyimiz bundan irəli gəlir.

2021-ci il iyunun 15-də Şuşada imzaladığımız Bəyannamə nəticəsində müttəfiqlik münasibətləri ilə möhkəmləndirdiyimiz bu qardaşlığımızı zəiflətmək istəyənlər dünən olduğu kimi bu gün də, sabah da hədəflərinə əsla çata bilməyəcəklər. Allahın izni ilə birliyimiz daim sarsılmaz olacaqdır.

Biz bu missiyanı, eyni zamanda, Türk dünyasında da hakim mövqeyə gətirmək üçün var gücümüzlə çalışırıq. Türk Dövlətləri Təşkilatımızın bu gün çatdığı yüksək səviyyə ortaq iradəmizin və səylərimizin ən bariz nəticəsidir. Fürsətdən istifadə edərək, sədrliyi dövründə Türk dünyasının birlik və möhkəmliyi üçün göstərdiyi səylərə görə Azərbaycana təşəkkür edirəm. İnşallah, biz də sədrliyimiz dövründə təşkilatın daha güclü, daha institusional quruma çevrilməsi üçün səy göstərəcəyik.





Hörmətli media nümayəndələri, Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə öz torpaqlarını işğaldan azad etməsi Cənubi Qafqazda yeni bir dövrə qapı açıb. Bu gün qarşımızda duran vəzifə döyüş meydanında qazanılan Zəfəri dayanıqlı sülh və sabitliklə taclandırmaqdır. Biz Azərbaycanın haqlı mübarizəsini sahibləndiyimiz kimi, bölgəmizdə dayanıqlı sülhün bərqərar olması yönündə səmimi səylərini də dəstəkləyirik. Qarabağın yenidən bərpası və bölgənin əvvəlki gözəlliyinə qovuşması üçün Azərbaycanın ortaya qoyduğu fəaliyyəti böyük təqdirlə izləyirik.

Qarabağda yenidən yanan hər ocaq, yüksələn hər bina və bərpa olunan tarixi miras Azərbaycan xalqının gələcəyə inamını göstərir. İnşallah, bu yolda təcrübəmizi bölüşməyə, yenidənqurma və bərpa fəaliyyətlərinə töhfə verməyə davam edəcəyik. Ən son Cəbrayılda “Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi” və “Ağıllı Tingçilik” Müəssisəsini yaratmağın qürurunu yaşadıq. Kənd təsərrüfatı və Meşəçilik Nazirliyimizin töhfələri ilə qurulan bu müəssisə Türkiyə-Azərbaycan əməkdaşlığının yeni bir göstəricisi olmuşdur. Bundan başqa, Ağdamda sahəsi 14 min 500 kvadratmetr olan qırx otaqlı məktəbimizin inşasına da başlandı. İnşallah, gələn il İlham qardaşımla birlikdə açılışını edəcəyik.

Əziz qardaşlarım, çıxışımı yekunlaşdırarkən xüsusilə bu gün buraya gələrkən ayrı-ayrı yeddi tuneldən keçdik. Bu yeddi tunel bölgədə infrastrukturun inşasının nə qədər uğurlu olduğunu ortaya qoyur. Şuşaya gələrkən haradan-haraya gəldiyimizi görməyin xoşbəxtliyi içərisindəyik. İnanıram ki, növbəti gəlişimizdə Şuşa daha çox fərqli olacaq, Füzuli başqa cür fərqli olacaq. Çünki bu işə inanan, can yandıran bir lider var, bir komanda var. Bu lider, bu komanda eyni inancla və eyni qətiyyətlə yoluna davam edir.



Mən Qarabağ Zəfərini canları və qanları ilə tariximizə həkk edən əziz şəhidlərimizi bir daha rəhmətlə yad edirəm. Qəhrəman qazilərimizə təşəkkürlərimi bildirir, azərbaycanlı qardaşlarımı bu şanlı Zəfər münasibətilə bir daha səmimi-qəlbdən təbrik edirəm. Türkiyə və türk milləti olaraq hər zaman yanınızda olmaqda, kədərinizi kədərimiz, sevincinizi sevincimiz bilməkdə, inşallah, davam edəcəyik. Təşəkkür edirəm.

Çıxışımın sonunda mərhum şair Bəxtiyar Vahabzadənin məşhur ifadələrini dilə gətirmək istəyirəm:

Birdir bizim hər halımız,
Diləyimiz, amalımız,
Bayraqlarda hilalımız
Azərbaycan-Türkiyə.

Rəbbim ay-ulduzlu al Bayrağımızla şanlı Azərbaycan Bayrağının göylərdə yan-yana əbədi dalğalanmasını nəsib etsin. 9 Noyabr - Dövlət Bayrağı Gününüzü ən səmimi hisslərimlə təbrik edir, buradan qardaş Azərbaycan xalqına salam və sevgilərimi çatdırıram.

İlham qardaşıma səmimi ev sahibliyi üçün bir daha təşəkkür edirəm.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Şuşa qalası önündə foto çəkdiriblər.

* * *

Noyabrın 8-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan ilə çay süfrəsi arxasında söhbət ediblər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Xankəndi şəhərində Zəfər abidəsini ziyarət edərək önünə əklillər qoyublar.

(Ardı 4-cü səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev:

“Türkiyə-Azərbaycan birliyi əbədidir və sarsılmazdır”



(Əvvəli 3-cü səhifədə)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Xocalı şəhərində Xocalı Soyqırımı Memorialını ziyarət ediblər.

Azərbaycan və Türkiyə prezidentləri Memorialın önünə əklillər qoyublar.

Komplekslə tanışlıq zamanı bildirilib ki, Xocalı Soyqırımı Memorialı Prezident İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı Sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb. Layihə Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb.

Memorial dörd bölmədən ibarətdir. İlk iki bölmədə Xocalı soyqırımı qurbanlarının xatirəsini yaşadan ekspozisiya zalı yaradılıb.

Ekspozisiyada təqdim olunan “Faciənin siması” instalyasiyası soyqırımı zamanı qətlə yetirilmiş dinc sakinləri, məhv olmuş ailələri əks etdirir.

Xocalı soyqırımına həsr edilmiş ekspozisiyada Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin tarixi kökləri, işğalçılıq siyasəti və erməni terrorçuların Azərbaycan torpaqlarında törətdiyi fəsadlar sənədlər, xəritələr və faktlar əsasında təqdim olunur. Burada Xocalının tarixi, münaqişənin xronologiyası, soyqırımı barədə məlumatlar və Ümummilli Lider Heydər Əliyevin soyqırımına verdiyi siyasi-hüquqi qiymət nümayiş olunur.

Ekspozisiya zalındakı Xocalı maketində faciə günü yaşanan dəhşətlərə dair məlumatlar interaktiv formada təqdim edilir.

İkinci ekspozisiya zalında faciə zamanı tamamilə məhv edilmiş 8 ailənin taleyi, cinayət nəticəsində bir gecədə yarımçıq qalan həyatlar, arzular süni intellektlə hazırlanan video vasitəsilə nümayiş olunur.

Ekspozisiya zalında Prezident İlham Əliyevin Xocalı həqiqətlərinin beynəlxalq səviyyədə tanıdılması üzrə apardığı ardıcıl siyasət, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə Fondun Xocalı soyqırımı qurbanlarının xatirəsinin yaşadılması və ədalətin bərqərar olması istiqamətindəki fəaliyyəti, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başladılan “Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində görülən işlər əks etdirilir.

“Xocalıya ədalət!” beynəlxalq kampaniyası çərçivəsində soyqırımı qurbanlarının xatirəsinə bir sıra ölkələrdə ucaldılmış abidələrin maketləri də burada sərgilənir.

Ekspozisiya 44 günlük Vətən müharibəsinə və dövlət suverenliyinin bərpasına dair məlumatlar, “Böyük Qayıdış” və “Viran edilən Xocalı yenidən dirçələcək” ideyaları ilə tamamlanır.

* * *

Prezident Rəcəb Tayyib Ərdoğan Memorialın xatirə kitabına ürək sözlərini yazıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan noyabrın 8-də Xankəndidə Vətən Müharibəsi qəhrəmanları ilə, “Qarabağ” və “Zəfər” ordenlərinə layiq görülmüş hərbi qulluqçularla görüşüblər.



* * *

Noyabrın 8-də Xankəndidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə rəsmi ziyafət verilib.



Ziyafətdə konsert proqramı təqdim olunub.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, ailə üzvləri, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan incəsənət xadimləri, həmçinin Vətən Müharibəsi qəhrəmanları, “Qarabağ” və “Zəfər” ordenləri ilə təltif edilmiş hərbi qulluqçularla görüşüb, foto çəkdiriblər.

* * *

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri noyabrın 8-də başa çatıb.

Füzuli Beynəlxalq Hava Limanında Türkiyə dövlətinin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident Rəcəb Tayyib Ərdoğanı və xanımı Əminə Ərdoğanı Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yola salıblar.

AZƏRTAC-ın materialları əsasında

Konstitusiyanın qəbul olunmasından 31 il keçir



Hər bir ölkənin ana qanunu onun Konstitusiyasıdır. Bütün qanunlar Konstitusiya əsasında yaradılır, formalaşır. Tarixi müstəqillikdən əvvəl də Konstitusiya vardı. O sovet Azərbaycan Respublikasının Konstitusiyası idi. 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Cümhuriyyəti dövlətin əsas qanununu qəbul edə bilməmişdir. Bu səbəbdən də Azərbaycanda Konstitusiya quruluşu SSRİ-nin tərkibində olduğu dövrə təsadüf olunur. Beləliklə, ilk ana qanunumuz sovet dövlətinin konstitusiyasına uyğun yaradılmışdı.

Azərbaycanın ilk Konstitusiyası 1921-ci il mayın 19-da I Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilib. Azərbaycan xalqının adət-ənənəsindən, millimənəvi dəyərlərindən tam uzaq bir qanun idi. 1936-cı ildə SSRİ-nin yeni Konstitusiyasının qəbul edilməsi ilə əlaqədar 1937-ci il martın 14-də IX Ümumazərbaycan Sovetlər Qurultayının qərarı ilə Azərbaycan SSRİ-nin yeni Konstitusiyası qüvvəyə minib.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul ediləndən sonra Azərbaycan SSRİ-in yeni Konstitusiya layihəsi hazırlanıb. 1978-ci il aprelin 2-də həmin layihə ilə əlaqədar Azərbaycan SSRİ Ali Sovetində məruzə ilə çıxış edən Ümummilli Lider Heydər Əliyevin təklifi ilə 73-cü maddə aşağıdakı redaksiyada verilib: “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir”.

Həmin Konstitusiyaya 1980-ci illərin ikinci yarısından etibarən çoxsaylı əlavə və dəyişikliklər edilib. Bunun nəticəsində ilkin redaksiyaya münasibətdə əhəmiyyətli dərəcədə dəyişikliyə uğrayıb və müstəqilliyin ilk illərində həmin Konstitusiya qüvvədə olub.

Azərbaycan xalqı 1990-cı illərdə və ondan əvvəl başlanan müstəqillik və azadlıq uğrunda mübarizənin önündə olub. Xalq hər zaman özünün milli-mənəvi, dini, dünyəvi, dövlətçilik dəyərlərini üstün tutub. Bu dəyərləri qoruyub saxlamaq üçün tarixin ən ağır sınaqlarından keçib. Ötən əsrin doxsanıncı illərin əvvəlləri Azərbaycan üçün tarixin ən çətin sınaq dövrü olub. Həmin illərdə ölkəmizin ərazi bütövlüyünə qarşı erməni təcavüzü müharibə müstəvisinə qədər yüksəlmişdi. Hakimiyyətdəki siyasi böhran vətəndaş müharibəsi həddinə gəlib çıxmışdı. Zamanın bu çətin dönəmində hakimiyyətin yeni Konstitusiyanı qəbul etmək barədə düşünməyə vaxtı yox idi. Bu yalnız xalqın təkidi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu.

1995-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsi 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarət dövlətin ana qanunu hazırlandı. Həmin il noyabrın 12-də ümumxalq referendum ilə Konstitusiya qəbul olundu. Yeni Konstitusiya noyabrın 27-də qüvvəyə minib. Azərbaycan xalqının bütün dəyərlərini özündə ehtiva edən bu Konstitusiyaya sonradan ümumxalq səsvermə yolu ilə 3 dəfə - 24 avqust 2002-ci il, 18 mart 2009-cu il və 26 sentyabr 2016-cı ildə əlavə və dəyişikliklər edilib.

Konstitusiyada deyilir: “Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktında əks olunan prinsipləri əsas götürərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq, suveren hüququndan istifadə edərək, təntənəli surətdə aşağıdakı niyyətlərini bəyan edir: - Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq; Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək; vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq; xalqın iradəsinin ifadəsi kimi qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq; ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsini təmin etmək; ümumbəşəri dəyərlərə sadiq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi, hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu”.

Ana qanun bu qeyd olunan prinsiplər əsasında qəbul olunmaqla xalqın, dövlətin inkişafını təmin edir. Azərbaycanın Konstitusiyasında hər bir vətəndaşın hüquq və azadlıqlarının təmin edilməsindən irəli gələn bütün müddəalar öz əksini tapıb.

Ölkəmizdə hər il 12 noyabr - Konstitusiya Günü dövlət bayramı kimi qeyd olunur. Xalqımız ilk müstəqil dövlətin qəbul etdiyi Konstitusiya Aktına hörmət edir, göstərilən qayda və tələbləri rəhbər tutur. Hər il olduğu kimi, bu il də xalqımız Konstitusiyanın qəbul olunmasının 31-ci ildönümünü qeyd edir. Bu münasibətlə xalqımızı təbrik edirik!

Bəxtiyar ƏLİYEV
“Azərbaycan Ordusu”

Zəfər Günündə Ulu Öndərin və şəhidlərimizin xatirəsi ehtiramla yad edilib







8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbər heyəti Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin xatirəsini ehtiramla yad edib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Fəxri xiyabanı ziyarət edən Müdafiə Nazirliyinin rəhbər heyəti Ulu Öndər Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoyaraq onun əziz xatirəsinə dərin ehtiramını ifadə edib. Daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarı ziyarət olunub, üzərinə tər güllər düzülüb.

Hərbi Memorial Məzarlıqda keçirilən anım mərasimində hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ardınca şəhidlərin məzarları üzərinə gül dəstələri qoyulub, memorial abidənin önünə əklil qoyularaq onların xatirəsinə ehtiram nümayiş etdirilib.

Ziyarət proqramı Zəfər parkında davam etdirilib. Burada abidənin önünə əklil və gül dəstələri qoyulub, Vətən uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsi ehtiramla anılıb.

Ziyarət zamanı Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov şəhid ailələri və yaxınları ilə görüşüb, onların qayğıları və sosial vəziyyəti ilə maraqlanıb.

Görüşdə şəhid ailələri onlara dövlət tərəfindən göstərilən davamlı diqqət və qayğıya, eləcə də hərtərəfli dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.







Azərbaycan Respublikası müdafiə nazirinin 8 Noyabr - Zəfər Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi böyük qürur hissi və təntənə ilə qeyd etdiyimiz 8 Noyabr - Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, Azərbaycanın müdafiə qüdrətinin daha da artırılması naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin müstəsna xidmətləri sayəsində respublikamızın müstəqilliyinin, suverenliyinin, müdafiə və təhlükəsizliyinin təminatçısı olan Azərbaycan Ordusunda vahid komandanlıq yaradılaraq ordumuz nizami ordu kimi formalaşmış və hərbi quruculuq məsələləri prioritet məsələ kimi daima önə çəkilmişdir.

Ulu Öndərin qurtuluşdan başlanan Zəfər yolu və inkişaf strategiyası Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Respublikamızın müdafiə qüdrətinin artırılması istiqamətində qazanılan böyük nailiyyətlər, eyni zamanda, orduda aparılan genişmiqyaslı islahatlar, keçirilən təlimlər, düşmənin təxribatlarına qarşı aparılan uğurlu irimiqyaslı əks-hücum əməliyyatları şəxsi heyətin qələbə əzmini daha da möhkəmləndirərək 8 Noyabr - Zəfər Günü Azərbaycanın şanlı hərb tarixinə qızıl hərflərlə yazıldı. Bu gün Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunda aparılan genişmiqyaslı islahatların uğurla davam etdirilməsi ordumuzu daha qüdrətli və yenilməz edir.

Dövlət başçımızın Sərəncamı ilə ölkəmizdə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi işğaldan azad olunan ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma, bərpa və abadlıq işlərinə böyük töhfədir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı parlaq qələbə və həyata keçirdiyi uğurlu döyüş əməliyyatları, antiterror tədbirləri nəticəsində düşmən işğalında qalmış tarixi torpaqlarımız azad olundu. Ali Baş Komandanın yürütdüyü qətiyyətli və uzaqgörən siyasəti, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi tam təmin edildi. Azərbaycan Respublikasının Dövlət Bayrağının əzəmətlə və qürurla dalğalandığı işğaldan azad edilən ərazilərdə rəşadətli Azərbaycan Ordusu bərpa-quruculuq işlərinin əmin-amanlıq şəraitində həyata keçirilməsinə, Böyük Qayıdışa layiqli töhfələrini verir. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə daim sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsini hər zaman olduğu kimi, 8 Noyabr - Zəfər Günü ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Şəhidlərimizin ailə üzvləri və sağlamlığını itirən döyüşçülərimiz, müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, sosial qayğılarının həlli istiqamətində mühüm addımlar atılır. Şəhid hərbi qulluqçularımızın valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha hər birinizi 8 Noyabr - Zəfər Günü münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı, uzun ömür, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

General-polkovnik
Zakir Həsənov
Azərbaycan Respublikasının
müdafiə naziri

Azərbaycan Respublikası müdafiə nazirinin 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə Azərbaycan Ordusunun şəxsi heyətinə təbriki

Cənab zabitlər, yoldaş gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər, matroslar, dövlət qulluqçuları və mülki işçilər!

Sizi müstəqilliyimizin əbədi rəmzi olan 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə səmimi-qəlbdən təbrik edir, respublikamızın müdafiə qüdrətinin daha da artırılması naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Ulu Öndər Heydər Əliyevin müstəqilliyimizin möhkəmləndirilməsi dönəmində həyata keçirdiyi müdrik strategiya, həmçinin müasir mərhələdə möhtərəm Prezident cənab İlham Əliyevin yürütdüyü ardıcıl daxili və xarici siyasət nəticəsində Azərbaycan Respublikası Cənubi Qafqazın lider dövləti olaraq regionda sülhün, təhlükəsizliyin təminatçısına çevrilib.

Eyni zamanda, Dövlət başçımızın tarixi Sərəncamı ilə respublikamızda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də işğaldan azad olunan ərazilərdə həyata keçirilən genişmiqyaslı yenidənqurma, bərpa və abadlıq işlərinə böyük töhfədir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət quruculuğunda prioritet məsələ hesab etdiyi ölkənin müdafiə qabiliyyəti gündən-günə güclənir. Azərbaycanın dünyada nüfuzunun daha da artması, xalqımızın dövlətə, orduya inamının möhkəmlənməsi dövlət və ordu quruculuğu istiqamətində görülən mühüm işlərin nəticəsidir.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qanunsuz erməni silahlı birləşmələrinin təxribatlarına qarşı aparılan uğurlu əks-hücum əməliyyatlarında və antiterror tədbirləri rəşadətli Azərbaycan Ordusunun qazandığı parlaq qələbələrlə düşmən işğalında qalmış tarixi torpaqlarımız azad olundu. Ali Baş Komandanın yürütdüyü qətiyyətli və uzaqgörən siyasət, ordumuzun gücü sayəsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi təmin edildi. Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə indi şanlı üçrəngli bayrağımız əzəmətlə, qürurla dalğalanır. Əminəm ki, Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə daim sadiq qalaraq döyüş və mənəvi-psixoloji hazırlığınızı gücləndirəcək, xidmətinizdə yeni uğurlar əldə etmək üçün səy və bacarıqlarınızı daha da artıracaqsınız.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsini hər zaman olduğu kimi 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü ərəfəsində də dərin hörmət və ehtiramla yad edirik. Şəhidlərimizin ailə üzvləri və sağlamlığını itirən döyüşçülərimiz, müharibə veteranları daima dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılır. Ali Baş Komandan cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, sosial qayğılarının həlli istiqamətində mühüm addımlar atılır. Şəhid hərbi qulluqçularımızın valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlığını itirən silahdaşlarımızı, əziz veteranları bayram münasibətilə təbrik edir, onlara ən xoş arzularımı çatdırıram.

Bir daha Sizi 9 Noyabr - Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, Vətənə, müstəqil Azərbaycan dövlətinə şərəfli xidmətinizdə yeni uğurlar arzulayıram.

General-polkovnik
Zakir Həsənov
Azərbaycan Respublikasının
müdafiə naziri

Quru Qoşunların komandanı şəhid övladları ilə görüşüb







Müdafiə nazirinin müavini - Quru Qoşunların komandanı general-polkovnik Hikmət Mirzəyev 8 Noyabr - Zəfər Günü ərəfəsində şəhid övladları ilə görüş keçirib.

Müdafiə Nazirliyi xəbər verir ki, görüş zamanı Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçərək şəhidlik zirvəsinə ucalan hərbçilərimizin əziz xatirəsi ehtiramla yad edilib.


Şəhid övladlarının qayğı və problemləri dinlənilib, onların sosial vəziyyəti və gündəlik ehtiyacları ilə maraqlanılıb. Bildirilib ki, Vətən uğrunda misilsiz şücaətlər göstərərək şəhid olan döyüşçülərimizin xatirəsi daim uca tutulur, onların ailələri hər zaman diqqət və qayğı ilə əhatə olunurlar.

General-polkovnik H.Mirzəyev şəhid övladlarının fikirlərini dinləyib, onların arzu və istəklərinin dövlətimiz tərəfindən diqqət mərkəzində saxlanılacağını bildirib.

Görüşdə şəhid övladları onlara göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

Qeyd olunub ki, şəhidlərimizin əziz xatirəsinin yaşadılması, onların ailələrinə dəstəyin göstərilməsi Azərbaycan Ordusunun əsas mənəvi dəyərlərindən biridir.

Azərbaycan Ordusunda andiçmə mərasimləri keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2026-cı ilin hazırlıq planına uyğun olaraq, noyabrın 8-də Azərbaycan Ordusunda gənc əsgərlərin andiçmə mərasimləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi orkestrlərin müşayiəti ilə döyüş bayraqları təntənəli surətdə sıra meydanlarına gətirildikdən sonra tədbirlər açıq elan olunub.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, həmçinin Vətən uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Təntənəli surətdə Hərbi Andı qəbul edən gənc əsgərlər Vətənə sadiq olacaqlarına söz veriblər.

Müdafiə Nazirliyinin nümayəndələri və hərbi hissə komandirləri çıxış edərək gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib, onlara Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi Anda sadiq olmalarını, nümunəvi xidmət etməyi, silah və texnikanın sirlərini dərindən öyrənərək döyüş hazırlıqlarını daim yüksəltmələrini, komandir-rəis heyətinin əmr və göstərişlərini dəqiq və vaxtında yerinə yetirmələrini, torpaqlarımızın müdafiəsi naminə hər an hazır olmalarını tövsiyə ediblər.

Andiçmə mərasiminin 8 Noyabr - Zəfər Gününə təsadüf etməsinin şəxsi heyət üçün xüsusilə dəyərli, yaddaqalan olması və bu günün şəxsi heyət üçün ikiqat bayram olması vurğulanıb.



Çıxış edən gənc əsgərlərin valideynləri övladlarının Vətən qarşısında şərəflə xidmət etmələrindən qürur duyduqlarını və yaradılan şəraitə görə dövlət başçısına, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Daha sonra hərbi qulluqçular təntənəli marşlarla tribunaların önündən keçiblər.

Sonda şəxsi heyət üçün andiçmə mərasimi və 8 Noyabr - Zəfər Günü ilə əlaqədar konsert proqramları təşkil edilib.

8 Noyabr - Zəfər Günü Azərbaycan Ordusunda təntənəli şəkildə qeyd edilib



Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, hərbi qulluqçular Şəhidlər xiyabanlarını ziyarət edərək ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş Vətən övladlarının məzarları üzərinə güllər düzüb, xatirələrini hörmət və ehtiramla yad ediblər.

Mərasimlərdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, həmçinin Vətən uğrunda şəhid olan vətəndaşlarımızın xatirələri bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrlərin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Silsilə tədbirlərdə Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi qələbənin əhəmiyyətindən, qələbənin qazanılmasında xalqımızın rolundan, döyüşçülərimizin göstərdikləri igidlik nümunələrindən danışılıb, şəhidlərimizin xatirəsinin heç vaxt unudulmayacağı əminliklə vurğulanıb. Şanlı qələbəmizdən keçən müddət ərzində işğaldan azad edilmiş torpaqlarımızda görülmüş abadlıq və quruculuq işlərindən geniş söhbət açılıb.

Tədbirlər çərçivəsində şəxsi heyət arasında vətənpərvərlik ruhunun və qələbə əzminin yüksəldilməsi, Vətənə və dövlətə sədaqət hissinin möhkəmləndirilməsi məqsədilə dəyirmi masalar təşkil olunub. Görüşlər zamanı döyüş əməliyyatlarında əldə edilmiş qələbələr, onların tarixi əhəmiyyəti və qəhrəmanlıq nümunələri ətrafında geniş fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, Vətən müharibəsinə həsr edilmiş sənədli filmlər və videoçarxlar nümayiş etdirilib. Hərbi orkestrlərin, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin, eləcə də yerli mədəniyyət və incəsənət nümayəndələrinin iştirakı ilə ədəbi-bədii kompozisiyalar, mədəni-kütləvi və digər tədbirlər təşkil olunub. Təqdim olunan proqramlar hərbi qulluqçular tərəfindən böyük maraqla izlənilib.



Tədbirlərin keçirilməsində əsas məqsəd şəxsi heyətin estetik dünyagörüşünün zənginləşdirilməsi, milli-mənəvi dəyərlərə bağlılıq ruhunda formalaşdırılması və mənəvi-psixoloji hazırlığının gücləndirilməsi olub.

Yekunda xidməti vəzifələrinin icrasında fərqlənən, nümunəvi davranışı və yüksək nizam-intizamı ilə seçilən bir qrup hərbi qulluqçu fəxri fərman və qiymətli hədiyyələrlə təltif edilib.

* * *

Zəfər Günü münasibətilə Azərbaycanın xarici ölkələrdəki nümayəndəlikləri və həmin ölkələrdə akkreditə olunmuş hərbi attaşelik aparatlarında tədbirlər keçirilib.

Xarici ölkələrin səfirliklərinin əməkdaşları, diplomatik missiyalarının rəhbərləri və hərbi attaşeləri, Müdafiə nazirliklərinin mənsubları və digər qonaqların iştirak etdikləri tədbirlərdə əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

(Ardı 7-ci səhifədə)

8 Noyabr - Zəfər Günü Azərbaycan Ordusunda təntənəli şəkildə qeyd edilib



(Əvvəli 6-cı səhifədə)

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı tarixi qələbənin əhəmiyyətindən, xalqımızın qəhrəmanlıq salnaməsindən, hərbçilərimizin göstərdikləri şücaətlərdən danışıblar.

Sonda təqdim olunan müxtəlif musiqi nömrələri və ədəbi-bədii kompozisiyalar iştirakçılar tərəfindən böyük maraqla izlənilib.

* * *

Bəzi tarixi qələbələr var ki, onların mənası döyüş meydanında əldə edilən hərbi uğurlarla ölçülmür. Bu qələbələr xalqın milli iradəsini, birliyini, dövlətçilik əzmini və gələcəyə inamını özündə yaşadır. Xalqımızın 44 günlük Vətən müharibəsində qazandığı möhtəşəm Zəfər də məhz belə tarixi günlərdəndir. Bu tarixi Zəfər illərlə qəlblərdə yaşadılan azadlıq arzusunun reallığa çevrilməsi dövlətimizin qüdrətinin və milli qürurumuzun təntənəsi oldu.

8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü xalqımızın yaddaşında xüsusi yer tutur. Bu iki əlamətdar tarix müstəqil dövlətimizin gücünü, Azərbaycan Ordusunun misilsiz şücaətini və üçrəngli bayrağımızın dəyərini, şərəfini bir daha göz önündə canlandırdı. Məhz bu əlamətdar günlər münasibətilə Azərbaycan Hərb Tarixi Muzeyində "Dəmir iradənin Zəfəri" adlı tədbir keçirildi. Tədbiri giriş sözü ilə muzeyin rəisi, ehtiyatda olan polkovnik Elşad Pənahov açaraq Zəfər Gününün tarixi əhəmiyyətindən, xalqımızın bu böyük Qələbəyə gedən çətin və şərəfli mübarizə yollarından, Azərbaycan Ordusunun Vətən müharibəsində nümayiş etdirdiyi qəhrəmanlıqlarından bəhs etdi. O qeyd etdi ki, "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz, tarixi qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilir. Bu tarixi Zəfərin qazanılması bizə xalqımızın birliyini, dövlətimizin gücünü və qüdrətli ordumuzun peşəkarlığının yüksək səviyyədə olduğunu bir daha göstərdi. Bu günün əsas mənəvi dəyəri, xalqımızın öz gücünə, dövlətinə və ordusuna olan inamının daha da möhkəmlənməsidir".



Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Vahid İsmayılov "Zəfərin qazanılmasında Heydər Əliyev ideyaları" mövzusundakı çıxışında Ümummilli Lider Heydər Əliyevin dövlətçilik irsinin, müstəqil Azərbaycanın inkişaf strategiyasının və ordu quruculuğu sahəsində müəyyən etdiyi siyasi xəttin tarixi əhəmiyyətini vurğuladı: "Ulu Öndər Heydər Əliyevin balanslaşdırılmış xarici siyasəti sayəsində Azərbaycan dünyanın siyasi xəritəsində geostrateji mövqeyini möhkəmləndirmiş, ölkəmiz Cənubi Qafqazın lokomotiv dövlətinə, regionda gerçəkləşdirilən bütün transmilli layihələrin təşəbbüskarına və fəal iştirakçısına çevrilmişdir. Ümummilli Lider Heydər Əliyevin çoxsaylı xarici səfərləri, ikitərəfli beynəlxalq səviyyədə imzalanmış mühüm saziş və sənədlər, uğurlu neft diplomatiyası, beynəlxalq və regional təşkilatlarla aparılan gərgin iş ölkəmizin inkişafının sürətləndirilməsinə mühüm töhfəsini vermişdir. Belə ki, Dahi Şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə Birləşmiş Millətlər Təşkilatının qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi beynəlxalq institutlarla səmərəli əməkdaşlıq yaradılmışdır. Bu gün hər bir azərbaycanlı fəxrlə deyə bilər ki, Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın qurucusudur. Müasir Azərbaycan bu gün demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolunda inamla irəliləyir. Artıq çətin günlərimiz arxada qalmışdır. Ulu Öndər Heydər Əliyevdən Azərbaycanın bu günü, sabahı üçün miras qalmış işlər həyatımıza o qədər nüfuz edib ki, bu gün Azərbaycan deyəndə Ümummilli Liderimiz, Heydər Əliyev deyəndə isə Azərbaycan başa düşülür. Həyatımızın hər anı üçün müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevə borcluyuq".



Azərbaycan Hərb Tarixi Muzeyində keçirilən tədbirdə Bakı Hərbi Kollecinin zabiti, Vətən müharibəsi veteranı Xəzər Nəsibli və Azərbaycan Hərb Tarixi Muzeyinin tədqiqatçı-elmi işçisi, Vətən müharibəsi veteranı Vaqif Qasımov da öz döyüş xatirələrini bölüşdülər. Onlar müharibə zamanı yaşanan hadisələri, döyüşçülərin mənəvi dözümünü, çətin anlarda bir-birinə dayaq olmasını və qələbəyə olan sarsılmaz inamını, bütün bu xatirələr tədbir iştirakçılarına müharibənin yalnız hərbi əməliyyatlardan ibarət olmadığını, o cümlədən insan iradəsinin, cəsarətinin və fədakarlığının ən ağır sınağı olduğunu bir daha xatırlatdılar.

Şübhəsiz ki, Vətən müharibəsinin qəhrəmanları haqqında danışmaq, onların keçdiyi döyüş yolunu gələcək nəsillərə çatdırmaq hər birimizin mənəvi borcudur. Azad edilmiş torpaqlarımızda üçrəngli bayrağımızın qürurla dalğalanması şəhidlərimizin, döyüşlərdə sağlamlığını itirən döyüşçülərimizin hesabına başa gəlib. Onların igidliyi gələcək nəsillər üçün Vətənə sədaqət nümunəsidir.

Tədbir çərçivəsində Zəfər Gününə həsr edilmiş qısametrajlı sənədli film nümayiş etdirildi. Filmdə əks olunan tarixi kadrlar, döyüş səhnələri və qələbə anları tədbir iştirakçılarına Vətən müharibəsinin unudulmaz günlərini bir daha xatırlatdı. Nümayiş olunan hadisələr tarixi Zəfərin hansı ağır sınaqlardan keçərək əldə olunduğunu göstərdi.

Tədbirin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistlərinin ifasında hərbi-vətənpərvərlik mahnıları səsləndirildi.

"Dəmir iradənin Zəfəri" adlı tədbir Zəfər Gününün və Dövlət Bayrağı Gününün mənəvi mahiyyətini özündə birləşdirən, iştirakçıların yaddaşında xoş təəssürat yaradan anlardan biri oldu.

Bu gün Azərbaycan Bayrağı işğaldan azad edilmiş torpaqlarda qürurla dalğalanır. Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, Böyük Qayıdış Proqramı tarixi Zəfərimizin yaratdığı yeni reallıqların təzahürüdür. Azərbaycan xalqı artıq öz torpaqlarında təhlükəsiz və firavan gələcəyini qurur. Bu mənzərə bir daha təsdiqləyir Vətən müharibəsində qazanılan tarixi Zəfər yalnız keçmişin deyil, həm də gələcəyimizin təməlidir.

"Dəmir iradənin Zəfəri" adlı tədbirin əsas mesajı da məhz bu həqiqətdən qaynaqlanırdı: xalqın birliyi, dövlətin qətiyyəti və ordunun gücü qarşısında heç bir maneə dayana bilməz. Azərbaycan xalqı öz tarixini özü yazdı, öz torpaqlarını özü azad etdi və dünyaya sübut etdi ki, xalqımızın milli iradəsi sarsılmazdır, müstəqilliyi əbədidir.

Zəfərimiz daimi, bayrağımız uca olsun!

Kifayət ƏLİYEVA
"Azərbaycan Ordusu"

8 Noyabr - Zəfər Günü və 9 Noyabr - Dövlət Bayrağı Günü münasibəti ilə hərbi orkestrlərin nümunəvi çıxışları təşkil olunub

8 Noyabr - Zəfər Günü münasibətilə paytaxtın müxtəlif yerlərində hərbi orkestrlərin nümunəvi çıxışları təşkil olunub.

Müdafiə Nazirliyi xəbər verir ki, çıxışlardan əvvəl Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bayram konsertlərində hərbi-vətənpərvərlik mahnıları, müxtəlif marşlar, tanınmış Azərbaycan və dünya bəstəkarlarının əsərlərindən ibarət musiqi parçaları ifa edilib.

Hərbi orkestrlərin çıxışları sakinlər və şəhərin qonaqları tərəfindən böyük coşqu və alqışlarla qarşılanıb.

* * *

Azərbaycan Respublikasının müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə Bakı, Sumqayıt, Gəncə və Naxçıvan şəhərlərinin mərkəzi küçə, prospekt və meydanlarında hərbi orkestrlərin müşayiəti altında hərbi qulluqçuların yürüşləri təşkil edilib.

Yürüşlərdən əvvəl Ulu Öndər Heydər Əliyevin, eləcə də Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Hərbi qulluqçuların vətənpərvərlik mahnıları və marşlar ifa edərək, hərbi orkestrlərin müşayiəti ilə keçirdikləri yürüşlər vətəndaşlarımız tərəfindən böyük coşqu, maraq və alqışlarla qarşılanıb.







Birliyimizdən doğan Zəfər, Zəfərimizdən doğan qürur!



Azərbaycan xalqının hərb tarixinə şanlı səhifə kimi yazılan 44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatı dövlətimizin gücünü, Azərbaycan Ordusunun döyüş qabiliyyətini və xalqımızın sarsılmaz birliyini nümayiş etdirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi Qələbə və ölkəmizin suverenliyinin tam bərpası hər bir azərbaycanlı üçün qürur mənbəyinə çevrildi. Bu tarixi nailiyyətlərin əsasında hərbi qulluqçularımızın peşəkarlığı, qəhrəmanlığı, şəhidlərimizin fədakarlığı və xalqımızın həmrəyliyi dayanır.

Məhz bu tarixi hadisələrin əhəmiyyətini bir daha vurğulamaq, Zəfər sevincini bölüşmək, şəhidlərimizin əziz xatirəsini yad etmək və şəhid ailələrinə ehtiram göstərmək məqsədilə Azərbaycan Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Birliyi və Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin birgə təşkilatçılığı ilə 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Birliyimizdən doğan Zəfər, Zəfərimizdən doğan qürur!" adlı tədbir keçirildi.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başladı. Ardınca Vətənimizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.



Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri Kərim Rzayev çıxışında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbədən, eləcə də 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatı nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunmasından danışdı. O, hər iki hərbi əməliyyat zamanı Azərbaycan hərbi qulluqçularının göstərdiyi igidliyi, fədakarlığı və yüksək döyüş hazırlığını xüsusi vurğuladı.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Ordusunun formalaşması və inkişafındakı tarixi xidmətlərinə də toxunan Komitə sədri bu gün ordu quruculuğu sahəsində həyata keçirilən işlərdən bəhs etdi, dövlətimizin şəhid ailələrinə göstərdiyi diqqət və qayğının əhəmiyyətini qeyd etdi. Kərim Rzayev çıxışının sonunda "Allah bütün şəhidlərimizə rəhmət eləsin! Yaşasın Azərbaycan Ordusu! Yaşasın birliyimiz!" sözlərini səsləndirdi.

Tədbirdə şəhid ailələrinin üzvləri, o cümlədən şəhid valideynləri də çıxış etdilər. Onlar şəhid ailələrinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Komitənin fəaliyyətində fərqlənən şəxslərin əməyinə də diqqət yetirildi. Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin keçmiş üzvlərinə və sədrlərinə, eləcə də Komitənin aparat əməkdaşlarına fəxri fərmanlar təqdim olundu. Təltif olunanların həmkarlar ittifaqı fəaliyyətinin təşkilində və əlaqələndirilməsində, şəhid ailələrinə və qazilərə diqqət və qayğının göstərilməsi istiqamətində gördükləri işlər yüksək qiymətləndirildi.

Tədbirin son hissəsində "44" bədii filminin təqdimatı keçirildi. Vətən müharibəsinin qəhrəmanlıq salnaməsinə həsr olunan ekran əsərində Azərbaycan hərbi qulluqçularının döyüş yolu, fədakarlığı, Vətənə bağlılığı və mənəvi dünyası bədii obrazlar vasitəsilə əks etdirilir. Filmin süjet xəttində Xüsusi Təyinatlı Qüvvələrin zabiti Rəşad Xəlilovun, Azərbaycanda çalışan türk həkim-ortoped Zeynəb Özdəmirin və xüsusi əməliyyat qrupunun komandiri polkovnik Ramazan Kərimovun obrazları xüsusi yer tutur. Bu obrazlar vasitəsilə müharibənin müxtəlif tərəfləri, döyüşçülərin məsuliyyəti, çətin sınaqlar qarşısında göstərdikləri iradə və Vətən naminə fədakarlıq ön plana çəkilir.









Filmin bədii rəhbəri Azərbaycan Respublikası Prezidentinin köməkçisi Anar Ələkbərov, quruluşçu rejissorları İsmayıl Səfərəli və Maksim Smetanadır. Ekran əsəri Mədəniyyət Nazirliyinin, Azərbaycan Respublikasının Kino Agentliyinin və Bakı Media Mərkəzinin dəstəyi ilə ərsəyə gəlib.

Şəhid ailələrinin nümayəndələri film haqqında fikirlərini bölüşərək ekran əsərinin ərsəyə gəlməsində əməyi olan yaradıcı heyətə təşəkkürlərini bildirdilər. Daha sonra tədbir iştirakçılarına "44" bədii filmi nümayiş etdirildi.

Zəfər Gününə həsr olunmuş tədbir xalqımızın birliyini, şəhidlərimizin xatirəsinə ehtiramı və Vətən uğrunda göstərilən qəhrəmanlığın unudulmazlığını bir daha nümayiş etdirdi. Azərbaycan əsgəri döyüş meydanında tarix yazdı. Bu gün həmin tarixin kino vasitəsilə yaşadılması və gələcək nəsillərə çatdırılması milli yaddaşımızın qorunmasına xidmət edən mühüm addımlardandır.


Emil MURADLI
"Azərbaycan Ordusu"

Sükan arxasında məsuliyyətli xidmət

Hərbi xidmətdə hər bir vəzifənin öz məsuliyyəti var. Ordunun gündəlik fəaliyyətində, şəxsi heyətin daşınmasında və müxtəlif tapşırıqların yerinə yetirilməsində hərbi sürücülərin üzərinə mühüm vəzifələr düşür. Onlar istənilən şəraitdə nəqliyyat vasitəsini idarə etməyə, yol hərəkəti qaydalarına əməl etməyə və verilən tapşırıqları vaxtında yerinə yetirməyə hazır olmalıdırlar. Bu iş diqqət, səbir, peşəkarlıq və yüksək məsuliyyət tələb edir.

Nizami İmamverdi oğlu Ələsgərov da hərbi xidmətini bu prinsiplər əsasında davam etdirən hərbi qulluqçulardandır. O, 6 avqust 1988-ci ildə Gədəbəy rayonunda anadan olub. Bir çoxları kimi, onun da hərbi mundir geyinmək arzusu olub. Bu arzuya çatmaq üçün çox səy göstərib. 2014-cü ildən hərbi xidmətdə olan Nizami Ələsgərov hazırda sürücü vəzifəsində çalışır. Xidmət etdiyi müddətdə ona həvalə olunan vəzifələrin məsuliyyətini dərk edir, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə çalışır.

Hərbi sürücünün fəaliyyəti yalnız nəqliyyat vasitəsini idarə etməklə məhdudlaşmır. O, avtomobilin texniki vəziyyətinə nəzarət etməli, yürüşə hazırlığını təmin edərək təhlükəsizlik qaydalarına ciddi əməl etməlidir. Xüsusilə mürəkkəb şəraitdə düzgün qərar vermək, diqqətli olmaq və vaxtında



hərəkət etmək böyük əhəmiyyət daşıyır. Çünki hərbi tapşırıqların uğurla yerinə yetirilməsi bəzən sürücünün hazırlığından və məsuliyyətindən də asılı olur.

Nizami Ələsgərovun hərbi xidmət yolunun mühüm məqamlarından biri də antiterror əməliyyatında iştirak etməsidir. Belə əməliyyatlarda iştirak etmək hər bir hərbi qulluqçudan fiziki və mənəvi hazırlıq, intizam və verilən tapşırıqlara məsuliyyətlə yanaşmağı tələb edir. Hərbi sürücülər də bu prosesdə üzərlərinə düşən vəzifələri yerinə yetirərək ümumi fəaliyyətə töhfə verirlər. Nizami Ələsgərovun bu əməliyyatların iştirakçısı olması onun xidmət yolunun əhəmiyyətli məqamlarından biridir.

Hərbi xidmətdə göstərilən diqqət və məsuliyyətin qiymətləndirilməsi hərbi qulluqçu üçün xüsusi əhəmiyyət kəsb edir. Nizami Ələsgərov xidmət etdiyi müddətdə hərbi hissə komandirləri tərəfindən təşəkkürnamə və fəxri fərmanlarla təltif edilib. Bu təltiflər onun xidmət fəaliyyətinə verilən qiymətin göstəricisidir.

Orduda xidmət yalnız verilən tapşırıqları yerinə yetirmək deyil, həm də hər gün üzərinə düşən vəzifəyə vicdanla yanaşmaqdır. Hərbi sürücünün sükan arxasında göstərdiyi diqqət, intizam və məsuliyyət ümumi xidmətin etibarlığına təsir edir. Nizami Ələsgərov də 2014-cü ildən davam edən hərbi xidmətində bu məsuliyyəti daşıyan hərbi qulluqçulardandır.

Hüsniyyə NƏSİROVA
"Azərbaycan Ordusu"

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatı üzrə növbətçisi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Hüsniyyə NƏSİROVA

Lisenziya № 361
Sifariş № 955
Nüsxə 3653